

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 175 (21.836)

16 sentyabr 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 15-də – Bilik Günündə Bakının Yasamal rayonundakı Arif Hüseynzadə adına 20 nömrəli məktəb-liseyin yeni inşa edilmiş binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı məktəb-liseyin binasının rəmzi açılışını bildirən lenti kəsib, məktəblə tanış olub.

Sonra Prezident İlham Əliyev məktəbin müəllim və şagird kollektivi ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də ölkəmizdə rəsmi səfərdə olan Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan-Batist Lömuanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə bir qrup şəxsə Azərbaycan Respublikasının fəxri adları verilmişdir.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının mədəniyyət işçiləri də vardır.

**Novruzov Əfsər Dilavər oğlu**

"Əməkdar artist"

**Axundova Solmaz Məmməd qızı**

"Əməkdar müəllim" fəxri adları ilə təltif edilmişlər.

## Babək rayonunun Payız kəndində kompleks quruculuq işləri aparılıb

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Hər bir vətəndaş üçün yaşadığı yerdən asılı olmayaraq, gözəl şərait yaradılmalıdır. İnsanlar işlə təmin olunmalıdır, təhlükəsizlik təmin edilməlidir, səhiyyə, təhsil ocaqları tikilməlidir".***

Sabitlik, davamlı sosial-iqtisadi islahatlar və aparılan geniş quruculuq işləri bu gün Naxçıvan Muxtar Respublikasının bütün yaşayış məntəqələrini əhatə etmişdir. Kəndlərin abadlaşması, müasir infrastrukturun yaradılması, fərdi təsərrüfatların genişlənməsi və məşğulluğun təmin olunması ölkəmizin ən qiymətli sərvəti olan insanların rahat yaşayışına imkan verir, məskunlaşma ilbəil artır. Həyata keçirilən tədbirlərin davamı olaraq bu il Babək rayonunun Payız kəndində də geniş abadlıq-quruculuq işləri aparılmış, yeni məktəb binası, kənd və xidmət mərkəzləri tikilmiş, rahat avtomobil yolu çəkilmiş, kənddəki qədim su dəyirmanı bərpa olunmuşdur.

## Bilik Günü Payız kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi ilə qeyd olunmuşdur

Sentyabrın 15-də – Bilik Günündə Payız kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Bilik Gününün – yeni tədris ilinin başlanmasının Babək rayonunun Payız kəndində müasir məktəb binasının istifadəyə verilməsi ilə qeyd olunduğunu bildirmiş, muxtar respublikanın ümumtəhsil, ali, orta ixtisas və peşə məktəblərinin şagird, tələbə və müdavimlərini, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarını, pedaqoji kollektivləri yeni tədris ilinin başlanması münasibətilə təbrik edərək demişdir: Təhsil qədər cəmiyyəti irəli aparan ikinci bir sahə yoxdur. Əgər təhsil inkişaf edirsə, ölkə də inkişaf edir. Bu gün inkişaf edən ölkələrin təcrübəsini nəzərdən keçirsək, görərik ki, bu ölkələrin inkişafının kökündə təhsilə göstərilən qayğı dayanır. Bu bir həqiqətdir ki, Azərbaycanda təhsilin müasir standartlara cavab verməsi ümummilli liderimiz Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti nəticəsində mümkün olmuşdur. Ümummilli liderimizin müəllifi olduğu və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilən təhsil strategiyası Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında yeni mərhələyə yüksəlmişdir.



Ali Məclisin Sədri demişdir: Göstərilən qayğının nəticəsidir ki, ölkəmizdə müasir təhsil infrastrukturu yaradılıb. Qəbul olunan dövlət proqramlarının icrası da təhsildə keyfiyyət dəyişikliklərinə səbəb olub. Hər bir təhsil pilləsi üzrə kadr hazırlığı müasir dövrün tələbləri nəzərə alınaraq həyata keçirilir. Görülən tədbirlərin nəticəsində ali, ali hərbi və orta ixtisas məktəblərinə qəbul olanların və qəbul imtahanlarında yüksək bal toplayanların sayı ilbəil artır. Təhsilə, məktəb işinə qoyulan sərmayə gələcəyə qoyulan sərmayədir. Əgər yaxşı mütəxəssis və əsl vətəndaş yetişdirmək istəyiriksə, ölkəmizin gələcəyini düşünürüksə, onda məktəb işinə, təhsilə həmişə olduğu kimi, bundan sonra da xüsusi diqqət yetirməliyik. Bu gün muxtar respublikanın ən ucqar kəndində də, şəhər və rayon mərkəzlərində də gənclərimiz müasir şəraitə və imkanlara malik olan məktəblərdə təhsil alırlar. Təhsil müəssisələrində elektron təhsil və yeni tədris metodları tətbiq olunur, şagirdlər kompüterlərdən və sürətli internetdən istifadə edirlər. Kəndlərimizdə yaradılan şərait yalnız təhsil infrastrukturu ilə məhdudlaşmır. Bu gün muxtar respublikanın bütün kənd yaşayış məntəqələrində geniş quruculuq işləri aparılır, kənd və xidmət mərkəzləri, səhiyyə müəssisələri, zəngin kitabxanalar, idman meydançaları və digər sosial obyektlər istifadəyə verilir, rahat yollar və körpülər salınır, sürətli internetə çıxış imkanları yaradılır.



Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***"Bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir"***, – fikrini xatırladaraq demişdir: Hər bir müəllim və şagird bilməlidir ki, dövlət müstəqilliyinin qorunub saxlanması vacib və taleyüklü məsələdir. Dövlət müstəqilliyini qorumağın, əsl vətəndaş olmağın yolu isə yaradılan təhsil imkanlarından bəhrələnməkdən, yaxşı təhsil almaqdan və hər bir gəncin seçdiyi sahə üzrə ixtisaslı kadr kimi yetişməsindən keçir. Təhsil elə bir sahədir ki, bu sahədə inkişafın ləngiməsi yolverilməzdir. Ona görə də məktəblərdə yaradılan müasir tədris şəraitindən, yeni texnologiyalardan lazımi şəkildə istifadə olunmalı, gənclər gələcək dövrün tələbləri nəzərə alınaraq hazırlanmalıdır. Bunun üçün, ilk növbədə müəllimlər ixtisaslarını təkmilləşdirməli, müasir tədris metodlarını mənimsəməli, müəllim-şagird münasibətləri qarşılıqlı hörmət və tələbkarlıq əsasında qurulmalıdır.

"Hərtərəfli təhsil alan, peşə öyrənən, özünü ölkəsinin gələcəyinə hazırlayan gənclər Azərbaycan xalqının milli sərvətidir. Biz gənclərə ölkəmizin gələcək təminatçıları kimi baxırıq. Gənclər isə bu gələcəyin daha da etibarlı olması üçün yaxşı təhsil almaqla yanaşı, həm də tariximizi, dilimizi öyrənməli, milli dəyərlərimizə və adət-ənənələrimizə sahib çıxmalı, vətənpərvər böyüməlidirlər", – deyən Ali Məclisin Sədri tədbir iştirakçılarını, eləcə də muxtar respublikanın bütün şagird, kursant və tələbələrini, müəllimləri bir daha Bilik Günü münasibətilə təbrik etmiş, onların hər birinə yeni tədris ilində uğurlar arzulamış, çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Elm və bilik ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra da təmin edəcəkdir".***

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək demişdir ki, muxtar respublikada yeni təhsil müəssisələrinin tikilməsi, informasiya-kommunikasiya texnologiyalarına təlim prosesində geniş yer ayrılması, distant təhsilin tətbiqi təhsil sahəsində uğurların qazanılmasına şərait yaratmışdır. 2017-ci ilin ötən dövründə muxtar respublikanın şəhər, kənd və qəsəbələrində yeni avadanlıqlarla təchiz edilən, ən yeni kompüter dəstləri və elektron lövhələrlə təmin olunan 2716 şagird yerlik 5 tam orta məktəb binası istifadəyə verilmişdir.



Ardı 2-ci səhifədə





Hazırda muxtar respublikada 3-ü ibtidai, 5-i ümumi orta və 208-i tam orta olmaqla, ümumilikdə, 216 məktəb və Heydər Əliyev adına Hərbi Lisey fəaliyyət göstərir. Cari tədris ilində muxtar respublikanın ümumtəhsil məktəblərində yaradılan 174 məktəbəhazırlıq qruplarına beş yaşı tamam olan 3119 uşaq cəlb edilmişdir. Hazırda ümumtəhsil məktəblərinin birinci siniflərində 5132 şagird təhsil alır. Təhsil Nazirliyinin tabeliyində olan 1 Peşə Liseyi və 3 Peşə məktəbində isə 5 ilk peşə ixtisası üzrə 24 qrupda 511 müdavimin təhsili ilə 34 müəllim və 12 istehsalat təlim ustası məşğul olur. Ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə quraşdırılmış, məktəblərə 4242 kompüter verilmişdir ki, onların da 3339-u internetə qoşulmuşdur. Bu ilin avqust ayında ümumtəhsil məktəblərinə 145 min 949 nüsxə dərslik, 6271 nüsxə müəllim vəsaiti, dərslərdə əyaniliyin təşkili məqsədilə məktəbəhazırlıq qrupları üçün 180 ədəd plakat verilmişdir. Bununla yanaşı, ümumtəhsil məktəblərinə 38 adda 8640 nüsxə bədii ədəbiyyat da paylanmışdır.

Payız kənd tam orta məktəbinin direktoru Turan Məmmədli demişdir ki, muxtar respublikamızda əhalinin yaşayış səviyyəsi yüksəldilir, tikinti-quruculuq işləri geniş vüsət alır. Quruculuq işləri içərisində təhsilə daha çox pay düşür, yeni təhsil müəssisələri istifadəyə verilir. Payız kəndində hər cür maddi-texniki baza ilə təchiz olunan və tədrisin keyfiyyətinin yüksəldilməsi üçün geniş imkanlar açan yeni məktəb binasının istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. Turan Məmmədli yaradılan şəraitə görə müəllim və şagird kollektivi, eləcə də valideynlər adından minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri məktəbin açılışını bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 3 mərtəbəli məktəb binası 240 şagird yerlikdir. Binada 3-ü elektron lövhəli olmaqla, 13 sinif otağı, 2 laboratoriya, hərbi kabinə, şahmat sinfi, kompüter otağı, müəllimlər otağı, psixoloq otağı, kitabxana və idman zalı fəaliyyət göstərir. Məktəbin kitabxana fondunda 1362-si dərslik və 2530-u bədii ədəbiyyat olmaqla, 3892 kitab vardır. Kitabxanada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamına uyğun olaraq “Oxunması zəruri olan kitablar”dan ibarət guşə yaradılmışdır. Kompüter otağında 19 kompüter quraşdırılmış və internetə qoşulmuşdur.

Ali Məclisin Sədri elektron lövhəli sinifdə muxtar respublikanın təhsil müəssisələri ilə Heydər Əliyev Muzeyi arasında keçirilən interaktiv dərsi izləmişdir. İnteraktiv dərsdə şagirdlərə ümummilli liderin həyatı, siyasi və dövlətçilik fəaliyyəti haqqında ətraflı məlumat verilmişdir.

Kimya-biologiya və fizika laboratoriyaları əyani tədris vasitələri ilə təmin olunmuş, idman zalında və hərbi kabinədə şagirdlərin fiziki hazırlığı və hərbi-vətənpərvərlik tərbiyələrinin təşkili üçün lazımi şərait yaradılmışdır.

Məktəbin pedaqoji kollektivi ilə görüşən Ali Məclisin Sədri demişdir ki, Payız kənd tam orta məktəbi müasir tədrisin tələbləri səviyyəsində qurulub. Bu il 2016-cı ilin məzunlarından 1, 2017-ci ilin məzunlarından isə 3 nəfər ali məktəblərə, 1 şagird Heydər Əliyev adına Hərbi Liseyə, 1 şagird isə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul olunub. Məktəbdə yaradılan şərait tədrisin bundan sonra da günün tələbləri səviyyəsində qurulmasına imkan verəcəkdir. Müəllimlər şagirdlərin hərtərəfli hazırlanmasına diqqət yetirməli, keçirilən dərslər qavrama yolu ilə öyrədilməli, yaradılan şəraitdən səmərəli istifadə olunmalıdır. Şagirdlərə birinci Ana dili və Vətən tarixi, ikinci dəqiq elmlər, üçüncü xarici dil öyrədilməli, dördüncü isə təmayülləşmə, yəni seçdiyi ixtisas üzrə fənlər öyrədilməlidir.

Məktəbin müəllimi Arif Bağırov minnətdarlıq edərək demişdir: Muxtar respublikada gənclərə hərtərəfli qayğı ilə əhatə olunub. Gənclərin təhsil alması, əsl vətəndaş kimi böyüməsi üçün bütün şərait yaradılıb. Hər il yeni məktəb binaları istifadəyə verilir, müasir tədris şəraiti yaradılır. Payız kəndində də təhsilin inkişaf etdirilməsi üçün bütün imkanlar vardır. Müəllimlər Ali Məclis Sədrinin “Oxunması zəruri olan kitablar haqqında” Sərəncamını minnətdarlıqla qarşılayır, bunu gələcəyimiz olan gəncliyə göstərilən daha bir qayğı kimi dəyərləndirirlər. Bütün bunlar pedaqoji heyətin məsuliyyətini daha da artırır. Çalışacağıq ki, yaradılan şəraitdən istifadə edərək təhsilli və vətənpərvər gənclər yetişdirək.

Binanın həyətində abadlıq işləri aparılmış, bufet tikilmiş, açıq idman qurğuları quraşdırılmışdır.

## Payız Kənd Mərkəzi istifadəyə verilmişdir





Sentyabrın 15-də Payızda yeni kənd mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, iki mərtəbədən ibarət olan kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis və baytarlıq məntəqələri, kitabxana, statistika otağı, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı və 44 yerlik zal yerləşir. Mərkəzdə yerləşən iş otaqları zəruri mebel dəstləri və avadanlıqlarla təchiz olunmuşdur.

Kitabxanada 7856 ədəbiyyat vardır. Kitabxanaların fəaliyyətinin gücləndirilməsi və kitabxana-oxucu əlaqələrinin səmərəli qurulması ilə bağlı tapşırıqlar verilmişdir.

Baytarlıq məntəqəsi Payız və Gülşənabad kəndlərinə xidmət edir. Məntəqə üçün ayrılan otaq müvafiq dərman preparatları və soyuducu ilə təmin edilmişdir.

Yeni Azərbaycan Partiyası Payız kənd ərazi ilk təşkilatının 140 üzvü vardır. Onlardan 50-si gənc, 26-sı isə qadındır.

Kəndlərdə aparılan kompleks quruculuq işləri zamanı yeni tibb ocaqlarının tikilməsi və müasir avadanlıqlarla təminatı kənd sakinlərinə göstərilən səhiyyə xidmətinin səviyyəsini yüksəldir. Feldşer-mama məntəqəsi 3 otaqdan ibarətdir. Burada lazımi şərait yaradılmış, tibbi avadanlıqlar və dərman vasitələri qoyulmuşdur.






Kənd mərkəzi istilik sistemi ilə təchiz edilmiş, həyətdə abadlıq işləri aparılmışdır.

*Ardı 3-cü səhifədə*

# Payız kəndinin yolu yenidən qurulmuşdur





Sentyabrın 15-də Payız kənd avtomobil yolu istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kənd sakinləri ilə görüşmüş, onları yeni sosial obyektlərin istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Bu gün Azərbaycan dövləti ümummilli liderimiz Heydər Əliyevin yaratdığı və müəyyən etdiyi yolla gedir. Ona görə də ölkəmizdə sabitlik, inkişaf və tərəqqi vardır. Bu gün ölkəmiz inkişaf edən ölkələr sırasındadır. Bütün bunların nəticəsidir ki, yaşayış məntəqələrində, kəndlərdə geniş quruculuq işləri aparılır. Bu gündən Payız kəndi də müasir kəndlərin sırasına qoşuldu. Kənddə yaradılan şərait insanların rahat yaşayışını təmin edəcəkdir. Sakinlər isə dövlətin yaratdığı bu şəraitdən istifadə edərək ölkəmizin inkişafına öz töhfələrini verməli, təsərrüfatlar genişləndirilməli, torpaqlar əkilməli, tikilənlər, qurulanlar qorunub saxlanılmalıdır.

Kənd sakini Nizami Cəfərov demişdir: Bu gün muxtar respublikanın inkişafı göz qabağındadır. Şəhər və kəndlərdə geniş tikinti-quruculuq işləri aparılır. Payız kəndi muxtar respublikanın səfalı yaşayış məntəqələrindəndir. Aparılan quruculuq işlərindən sonra isə kənd müasir görkəmə qovuşub. Yeni məktəb binası, yol və digər sosial obyektlər kəndin simasını tamamilə dəyişmişdir. Dayanıqlı elektrik və qaz təminatı, rabitə xidməti, sürətli internetə çıxış imkanları, içməli və suvarma su təminatı insanları qayğılardan azad edib. Ona görə də hər kəs təsərrüfatı ilə məşğul olur, torpaqlar əkilir, bol məhsul yetişdirilir. Bütün bunlar ona görə mümkün olur ki, ölkəmizdə ulu öndərin yolu davam etdirilir, insanlara qayğı göstərilir. Nizami Cəfərov yaradılan şəraitə görə kənd sakinləri adından minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri yolun açılışını bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, ümumi uzunluğu 5200 metr olan kənddaxili avtomobil yolu genişləndirilərək asfalt örtük salınmışdır. Yolun üzərində 82 su keçidi qoyulmuş, 2380 metrlik beton kanal çəkilmişdir. Tikinti işləri aparılarkən yolun kənarında 115 metr daş və 298 metr istinad divarı da tikilmişdir. Həmçinin Cəhri çayı üzərindəki kənd körpüsü təmir olunmuş, ətrafda 703 metr sahilbərkitmə işləri aparılmışdır.

# Payız kəndində xidmət mərkəzi və su dəyirmanı istifadəyə verilib





Həmin gün Payız kəndində yeni xidmət mərkəzi və su dəyirmanı da istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidmət mərkəzinin açılışını bildirən lenti kəsmişdir.

Xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət, ərzaq və təsərrüfat malları mağazaları, dərzi fəaliyyət göstərir. Mərkəzdə 6 kənd sakini işlə təmin olunmuşdur. Ali Məclisin Sədri tapşırmışdır ki, yerli ərzaq məhsullarının satışına üstünlük verilsin.

Ali Məclisin Sədri kənddəki su dəyirmanının yenidənqurmadan sonrakı vəziyyəti ilə də tanış olmuşdur.

Məlumat verilmişdir ki, muxtar respublikada xalqımızın məişət mədəniyyətinin ayrılmaz parçası olan su dəyirmanlarının bərpası diqqət mərkəzində saxlanılır. Culfa rayonunun Kırna, Saltaq və Camaldın kəndlərində gündəlik istehsal gücü 4 ton olan 3 su dəyirmanı fəaliyyət göstərir. Payız kəndindəki su dəyirmanının da gündəlik istehsal gücü 1 tondur. Dəyirmanda əsaslı bərpa və yenidənqurma işləri aparılmış, Cəhri çaydan qidalanan 1250 metrlik dəyirman arxı yenidən qurulmuşdur. Su dəyirmanı Payız kəndi ilə yanaşı, qonşu kəndlərin də tələbatını ödəyəcəkdir.

Ali Məclisin Sədri muxtar respublikada su dəyirmanlarının bərpasının bundan sonra da davam etdiriləcəyini bildirmiş, su dəyirmanlarının tarixi-mədəni irsimizin bir parçası kimi işlədilməsi və qorunub saxlanılması barədə tapşırıqlar vermişdir.

Payız kəndində abadlıq işləri də görülmüş, 3500 metr rabitə, 2900 metr elektrik xətti çəkilmiş, 1200 metr elektrik xətti təmir olunmuşdur. Həmçinin kənddəki yeni tikililərə 635 metrlik qaz xətti çəkilmiş, 3460 metr qaz xəttində təmir-bərpa işləri aparılmışdır. Əhalinin içməli suya olan tələbatının ödənilməsi istiqamətində də tədbirlər görülmüş, 900 metr müxtəlif diametrli yeni içməli su xətti çəkilmiş, 300 metr içməli su xətti bərpa olunmuşdur. Cəhri çayında 1500 metr məsafədə ikitərəfli sahilbərkitmə işləri aparılmış, Cəhri göllərinə su aparan kanalın 280 metrinin yeri dəyişdirilmiş və beton plitələrlə üzlənmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**





# Bilik Günü münasibətilə muxtar respublikada tədbirlər keçirilmişdir

15 sentyabr – Bilik Günü münasibətilə Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyəti və birinci kurs tələbələri əvvəlcə Naxçıvan Dövlət Bayrağı Muzeyini ziyarət ediblər.

Universitetdə keçirilən tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb. Rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tələbələrə yeni tədris ilində uğurlar arzulayıb, ümummilli liderimiz Heydər Əliyevin milli təhsil sisteminin inkişafına göstərdiyi qayğıdan, ölkəmizdə, o cümlədən muxtar respublikamızda gənc nəslin hərtərəfli inkişafı üçün yaradılan münbit şəraitdən danışıb. Yarıməsrlik tarixi inkişaf yolu keçən Naxçıvan Dövlət Universitetinin ölkənin qabaqcıl ali təhsil ocaqlarından biri olduğunu vurğulayan Saleh Məhərrəmov qazanılan uğurların muxtar respublikada təhsilə göstərilən yüksək diqqət və qayğının təzahürü olduğunu bildirib. Universitetin artan nüfuzunun nəticəsidir ki, cari ildə qəbul planı 92,2 faiz yerinə yetirilib.

Tədris şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Rafiq Rəhimov "Təhsildə kredit sistemi" adlı məruzəsində universitetdə fənlər üzrə biliyin kredit sistemi ilə qiymətləndirilməsi, ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları haqqında ətraflı məlumat verib.

Tələbələr adından Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisası üzrə I kurs tələbəsi, Prezident təqaüdçüsü Günnar Fərəcova, Tibb fakültəsinin Stomatologiya ixtisası üzrə I kurs tələbəsi Aygün Yusifova muxtar respublikada təhsilə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Universitetə yüksək balla qəbul olan gənclərə tələbə biletləri və "Naxçıvan Ensiklopediyası" təqdim edilib.

Tədbirin sonunda universitet haqqında film nümayiş etdirilib.

"Naxçıvan" Universitetində keçirilən tədbir də Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayıb. Tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev açaraq müəllim və tələbələri yeni tədris ilinin başlanması münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb. O, Azərbaycanda ümummilli lider Heydər Əliyevin elm, təhsil strategiyasının uğurla davam etdirilməsindən, bu sahədəki mühüm nailiyyətlərdən söz açıb. Rektor ali məktəblərdə təlim və tədrisin keyfiyyətinin yüksəldilməsi, kadr potensialının, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində görülən çoxşaxəli tədbirlərə nəzər salıb.

Qeyd olunub ki, "Naxçıvan" Universiteti yüksəkixtisaslı mütəxəssislər yetişdirən, güclü maddi-texniki bazaya malik, beynəlxalq əlaqələrini günbəgün genişləndirən ali təhsil ocağıdır. Dörd fakültə, on beş ixtisasın fəaliyyət göstərdiyi, minə yaxın tələbənin təhsil alacağı universitetdə müasir tədris korpusları, sosial xidmət mərkəzi, yataqxana binası, kitabxana və idman zalı mövcuddur. Universitetdə tədrisin səviyyəsi yüksəldilir, ixtisas fənləri elmi dərəcəsi olan müəllimlər tərəfindən tədris edilir, müasir təlim texnologiyalarından istifadə diqqətdə saxlanılır.

İsmayıl Əliyev deyib ki, bizim təhsilimizin məqsədi tələbələrə elm, bilik öyrətməklə yanaşı, həm də onları yüksək mənəviyyatlı, vətənpərvər və ixtisaslı gənclər kimi yetişdirməkdir. Universitetin Tarix ixtisası üzrə I kurs tələbəsi Şövkət Xudiyeva tələbələr adından çıxış edərək təhsil alacaqları ali məktəbin adını layiqincə doğruldacaqlarına, hərtərəfli mütəxəssis və ziyalı kimi yetişəcəklərinə əminliyini ifadə edib.

Valideynlər adından çıxış edən Əbülfəz Abdullayev muxtar respublikada təhsilə göstərilən qayğıya və "Naxçıvan" Universitetində yaradılmış şəraitə görə dövlətimizə minnətdarlıq edib.

Sonda tədbir iştirakçıları universitetin qısametrajlı tanıtım filminə baxıblar. Fakültə dekanları tərəfindən ali məktəbə yeni qəbul olunanlara tələbə biletləri təqdim edilib.

* * *

***Naxçıvan şəhərindəki 11 nömrəli tam orta məktəbdə keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***



Tədbiri Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov açaraq müəllim və şagirdləri Bilik Günü münasibətilə təbrik edib. Qeyd olunub ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəllifi olduğu təhsil strategiyası Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Təkcə Naxçıvan şəhərində deyil, ucqar dağ kəndlərində də şagirdlərin istifadəsinə müasir məktəb binaları, tədris avadanlıqları, sürətli internetə çıxışı olan kompüterlər, elektron lövhələr, zəngin fonda malik kitabxanalar, idman zalları verilib. Hazırda Qaraxanbəyli kəndində 6 nömrəli tam orta məktəb binasının tikintisi davam etdirilir. Artıq demək olar ki, Naxçıvan şəhərində təmir olunmayan məktəb binası qalmayıb. Bir sözlə, gənclərin zehni və fiziki inkişafı, bilik və bacarıqlarının artırılması üçün lazım olan bütün şərait yaradılıb. Çox istərdik ki, hər bir gənc yaradılan şəraitdən səmərəli istifadə etsin, biliklərə dərindən yiyələnsin, vətənpərvər olsun, öz intellektual və yaradıcı potensialını müstəqil Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafına həsr etsin.

Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Elşən Qəbulov çıxışında bildirib ki, təhsil sahəsində həyata keçirilən ardıcıl tədbirlər artıq öz bəhrəsini verməkdədir. 2017-ci ildə Naxçıvan şəhər ümumtəhsil məktəblərini bitirən 554 məzundan 495 nəfər, yəni 89,35 faiz ali və orta ixtisas məktəblərinə daxil olmaq üçün ərizə verib, onlardan 360 nəfəri, yəni 72,93 faizi ali məktəblərə, o cümlədən 4 nəfər xüsusi təyinatlı məktəblərə qəbul olunublar. 31 nəfər isə I turda müxtəlif orta ixtisas məktəblərinə daxil olub. Bu il tələbə adını qazanmış məzunlardan 60 nəfəri 500-700 intervalında bal toplayıb.

Qeyd edilib ki, yaradılan şərait daha böyük uğurlar qazanmağa imkan verir. Naxçıvan şəhərinin pedaqoji kollektivləri növbəti dərs ilində bu şəraitdən səmərəli istifadə edəcək, daha böyük uğurlara nail olacaqlar.

* * *



***Muxtar respublikamızın rayonlarında da 15 sentyabr – Bilik Günü münasibətilə tədbirlər keçirilib.***

***Şərur*** şəhərindəki 2 nömrəli tam orta məktəbdə keçirilən tədbiri məktəbin direktoru Sevil Hacıyeva açdıqdan sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov bildirib ki, muxtar respublikanın ən böyük rayonu olan Şərurda son illərdə 45-dək ümumtəhsil məktəbi, məktəbəqədər və məktəbdənkənar müəssisə tikilib, yaxud yenidən qurulub. Bu il də rayonun Ələkli, Ərəbyengicə və Qarahəsənli kəndlərində tam orta məktəb binaları tikilir, yaxud əsaslı şəkildə yenidən qurulur.

Qeyd olunub ki, Şərur şəhərindəki 2 nömrəli tam orta məktəbi bitirən 43 şagirdin 27-si respublikanın müxtəlif ali məktəblərinə, 4 məzun orta ixtisas məktəblərinə, 2 məzun isə hərbi liseyə qəbul olunub.

Tədbirdə rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Ağayeva və Şərur şəhərindəki 2 nömrəli tam orta məktəbin təşkilatçı müəllimi Ramin Şükürov çıxış edib, şagirdlər ulu öndərə, Vətənə, müəllimə həsr olunmuş şeirlər söyləyiblər.

***Ordubad*** rayonundakı Məhəmməd Füzuli adına Ordubad şəhər internat tam orta məktəbində keçirilən tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov bildirib ki, ötən dərs ilində rayonun tam orta məktəblərinin XI siniflərindən 259 məzun olub. Həmin məzunların 203-ü ali məktəblərə keçirilən qəbul imtahanlarında iştirak edib. 147 nəfər tələbə adını qazanıb. Onlardan 41-i 500-700 intervalında bal toplayıb. 11 illik təhsil bazasından 22 məzun orta ixtisas məktəblərinə qəbul olunub.

Ordubad şəhərindəki 1 və 3 nömrəli məktəblərdə, həmçinin rayonun kənd tam orta məktəblərində Bilik Günü ilə əlaqədar keçirilən tədbirlər də yaddaqalan olub.



***Culfa*** rayonunun Əbrəqunus kənd tam orta məktəbində keçirilən tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev qeyd edib ki, 2016-2017-ci tədris ilində rayonun tam orta məktəblərinin XI sinfini bitirən 373 məzundan 165 nəfəri tələbə adını qazanıb. 27 məzun 500-700 arasında bal toplayıb. Culfa rayonunun ümumtəhsil məktəblərindən 13 nəfər Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub.

Əbrəqunus kənd tam orta məktəbinin müəllimi Zirafər Yaqubova bildirib ki, məktəbi bitirən 15 nəfərdən 14 nəfəri ali məktəblərə qəbul olunub.

Sonda birincilər məktəblə bağlı şeirlər söyləyiblər.

***Kəngərli*** rayonunun Qıvraq qəsəbə tam orta məktəbində keçirilən tədbirdə məktəbin direktoru Mahmud Cavadov ötən tədris ilində təhsil ocağının əldə etdiyi uğurlardan danışıb.



Sonra Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov çıxış edərək bildirib ki, 2016-2017-ci tədris ilində rayonun orta məktəblərini 182 məzun bitirib, onlardan 87 nəfəri tələbə adına layiq görülüb. Ali məktəblərə qəbulda 5 nəfər 600-700, 13 nəfər 500-700 intervalında bal toplayıb.13 nəfər Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub. 14 məzun isə orta ixtisas məktəblərində təhsillərini davam etdirmək hüququ qazanıb.

Sonra Bilik Günü münasibətilə şagirdlərə hədiyyələr təqdim edilib.

***Şahbuz*** şəhər 1 nömrəli tam orta məktəbdə keçirilən tədbirdə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev qeyd edib ki, muxtar respublikamızın hər yerində olduğu kimi, rayonda da yeni məktəb binalarının tikintisinə xüsusi diqqət yetirilir. Belə ki, Şahbuz rayonunda 23 tam orta məktəbdən 22-si müasir bina ilə təmin edilib.



Vurğulanıb ki, 2016-2017-ci tədris ilində rayonun ümumtəhsil məktəblərinin XI siniflərini bitirmiş 133 şagirddən 71-i ali təhsil müəssisələrinə qəbul olunub. Onlardan 4 nəfəri 600-700, 15-i isə 500-600 intervalında bal toplayıb.

Sonra rayon Təhsil Şöbəsinin müdiri Araz Məmmədov, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Mahir Babayev və məktəbin müəllimi Tərifə Məmmədova çıxış edərək müəllim və şagirdləri Bilik Günü və yeni dərs ili münasibətilə təbrik ediblər.

Sonda məktəbin fəal şagirdləri tərəfindən şeirlər bədii qiraət olunub.

***Sədərək*** kənd 1 nömrəli tam orta məktəbində keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov qeyd edib ki, 2016-2017-ci tədris ilində rayonun ümumtəhsil məktəblərinin məzunu olan 77 şagirddən 40-ı müxtəlif ali məktəblərə qəbul olunub. Onlardan 1 nəfəri 600-700, 3 nəfəri isə 500-600 intervalında bal toplayıb. Bundan əlavə, 21 məzun orta ixtisas məktəblərinə, 19 nəfər isə Naxçıvan Tibb Kollecinə daxil olub. Bununla yanaşı, 1 şagird Sərhəd Qoşunları Akademiyasına, 1 şagird isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olub.

Sədərək kənd 1 nömrəli tam orta məktəbin direktoru Gülnarə Hüseynova çıxış edərək dövlətimizin təhsilə göstərdiyi qayğıdan danışıb.

**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Naxçıvan şəhəri, Xətai məhəlləsi $22/1^{A}$ ünvanında yaşayan Rəcəbov Səyyad Arif oğlunun adına olan 104013004841 reyestr nömrəli plan-ölçü və 0021068 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 737